

■ Sevinc ARZULU

## DARIXMIŞAM

Halını sormuram ki,
Telini hörmürəm ki.
Çoxdandır görmürəm ki.
Özümçün darıxmışam.

Dost-yara qarışmayan,
Küsüb də barışmayan,
Küləkdən alışmayan
Közümçün darıxmışam.

Çətində neyləyərdi,
Görən nə söyləyərdi.
Məni “Mən” eyləyərdi,
Dözümçün darıxmışam

## BU SEVGİ

Bu sevgi harada dayanıb durdu,
Bu sevgi qurtarmaz ömür bitincə.
Bu sevgi qaraya boyanıb durdu,
Dayanıb baxaram gözdən itincə.

Bu sevgi qarşısı alınmaz həsrət,
Bu sevgi qəlbimin qəm istəyiydi.
Başdan ayağadək açılmaz hikmət,
Alaca gözləri nəm istəyirdi.

Bəlli bir kəlamın, bəlli bir sözün,
Bəzən bir keçilməz bucağa dönür.
Qüssədən sevənin dolanda gözü,
Qaralır atəşin ocağı, sönür.

## KƏDƏRİN KÖLGƏSİ

Durmuşam önündə taleyi kəmin,
Duyuram dərdini gözləri nəmin,
Mən əsir qalmışam əlində qəmin,
Könlümə kədərin kölgəsi düşüb.

Ayrılıq yandıran qumsal olubdur,
Həsrətə -, hicrana timsal olubdur.
Kiminin qisməti vüsal olubdur,
Bəxtimə ayrılıq bölgəsi düşüb.

Daha ətir saçmır qızılgül kolum,
Əlimi uzatdım, qalxmadı qolum.
Gör neçə ildir ki düşməyir yolum,
Yadıma məhəbbət ölkəsi düşüb.

## SİL GÖZLƏRİNDƏN

Həsrətin alovun duyasıdır köz,
Bu ağrı-acını yuyasıdır söz.
Deyirlər ürəyin aynasıdır göz,
Nə olar, əzizim, gül gözlərindən.

Vüsala yetməkçün könlüm axanda,
Üstümə ulduz tək qaş-daş taxanda.
Özümü görürəm sənə baxanda,
Asılsın həmişə tül gözlərindən.

Mən keçim qəlbindən mavi zeh kimi,
Sən məni arzula sərin meh kimi.
Qoy daim nur saçsın parlaq şeh kimi,
Qüssəni, kədəri sil gözlərindən.

## ÜRƏYİM DÖYÜNƏR...

Fələkdən zərrə də qorxmayacağam,
Ayrılıq zalımı yıxmayacağam.
Sanıram soyuqdan çıxmayacağam,
Ürəyim döyünər payız gələndə.

Bir həzin nəğmədən dolacaq gözüm,
Acıqlı baxışdan solacaq sözüm.
Atəşim sönəcək, qalacaq közüm,
Ürəyim döyünər payız gələndə.

Solar xan çinarın yaşıl libası,
Çiyninə salınar sarı əbası.
Pozular dünyanın zəri-zibası
Ürəyim döyünər payız gələndə.

